Ədalət 2019.- 29 oktyabr.- S.5.

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında

*Şəkidə fəaliyyət göstərən bu yeganə ali təhsil ocağı mənim üçün doğma bir yerdir. Burada tez- tez muxtəlif elmi, ictimai-siyasi və mədəni-kütləvi tədbirlər keçirilir. Hərdən mən də həmin tədbirlərə dəvət olunuram. Filialın belə tədbirlərində iştirak edəndə daxilən mənəvi zövq alıram: həm öz tələbəlik illərim yaddaşımda təzələnir, həm də burada müasir gənclərin elmi səviyyəsini görəndə məndə iftixar hissi yaranır. Bir neçə gün öncə yenə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialına dəvət olundum. Mövzu və mühazirənin forması məni cəlb etdi və tədbirdə iştirak etmək üçün müəssisəyə getdim. Oraya çatanda diqqətimi ilk cəlb edən cəhət yay tətili müddətində burada aparılan yeni təmir, abadlıq və səliqə-sahman işləri oldu. Filialın həyətində müəllimlər bizi qarşıladılar, görüşüb söhbətləşdik və birlikdə akt zalına getdik. Bir neçə dəqiqədən sonra tələbələr də zala daxil oldular. Hamı öz yerini tutdu və Humanitar fənlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Vüsal Baxışov iştirakçıları salamlayaraq mühazirənin mövzusunu elan etdi. Mövzu belə idi: "Türklərın ana yurdu və yayılması haqqında". Sonra natiq sözü Humanitar fənlər kafedrasının baş müəllimi, "Türk xaqları ədəbiyyatı üzrə mühazirələr" adlı dərs vəsaitinin müəllifi Vaqif Aslanova verdi. Vaqif Aslanov mövzu ilə bağlı geniş, əhatəli məlumat verdi, bu barədəki konsepsiyaları və nəzəriyyələri iştirakçıların diqqətinə çatdırdı. Kafedra müdiri, tarix üzrə fəlsəfə doktoru Vüsal Baxışov isə bu məsələyə tarixşünaslığın münasibətini şərh etdi. Qeyd edildi ki, bir-birindən uzaq məsafələrdə yaşayan türk qövmləri tərəfindən istifadə edilən leksik vahidlər diqqəti cəlb edir. Ön Asiya və Qafqaz, Altay və Sibir, Orta Asiya və Uzaq Şərq, Rusiya və Amerika Alyaskaları, o cümlədən Meksika və Amerika Birləşmiş Ştatları əraziləri boyunca yayılan qızıl dərililərin eyni genetiq kökə malik olmaları və DNT analizi ilə bunların təsdiqi böyük maraq doğurur. Mühazirədə qeyd edildi ki, hazırda Amerikada yaşayan dünya şöhrətli rus alim Kolyusovun tədqiqatları da bu deyilənləri təsdiq edir.*

*Mühazirə öz yeni formatına görə diqqəti cəlb edirdi ki, mövzunun tarixi hissəsini Vüsal Baxışov, dil, folklor eyniliyi və yaxınlıqlarını isə tədqiqatçı-publisist Vaqif Aslanov dəlil-sübutlarla dinləyicilərə çatdırırdılar. Sonra tələbələri maraqlandıran suallar cavablandırıldı.*

*Bildiyimə görə, belə mühazirə formatı həm tələbələr, həm də qonaqlar üçün yeni idi. Mən tədbirdən xoş təəssüratlarla ayrıldım və Şəki filialının ümumi nailiyyətləri haqqında bir yazı hazırlamaq qərarına gəldim. Ona görə də əlavə məlumat almaq üçün filialın tədris işləri üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülarə Abdullayeva ilə görüşdüm. Ondan xahiş etdim ki, Şəki filialı haqqında mənə daha geniş məlumat versin. Gülarə xanım dedi:*

- Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı bölgədə mədəni həyatın inkişafında müstəsna əhəmiyyəti olan ali təhsil ocağıdır. Respublikamızın Şimal-Qərb bölgəsində yerləşən, tarixi və mədəni mərkəz olan qədim Şəkidə fəaliyyət göstərən bu ali məktəb 1991-ci ildə Bakı Dövlət Universitetinin Şəki filialı adı ilə fəaliyyətə başlamışdır. 14 iyun 2000-ci ildə Ümummilli Lider Heydər Əliyevin 349 saylı Fərmanı ilə BDU-nun və Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutunun Şəki filiallarının bazasında Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialı yaradılmışdır. Fəaliyyətinin ilk dövrlərində filiala "İbtidai təhsilin pedaqogikası və metodikası" və



"Məktəbəqədər təhsilin pedaqogikası və metodikası" olmaqla yalnız 2 ixtisas üzrə qəbul planı təsdiq edilmiş, 2003-cü ildə isə "Azərbaycan dili və ədəbiyyatı", "Xarici dil (İngilis dili)", "Tarix və coğrafiya" və "Riyaziyyat və fizika" ixtisasları olmaqla, əlavə 4 ixtisas üzrə də qəbul həyata keçirilmişdir. 2009-cu ildə "Riyaziyyat və informatika", 2011-ci ildə "Təhsildə sosial-psixoloji xidmət", 2012-ci ildə "Xarici dil (Fransız dili) müəllimliyi" və 2013-cü ildə yenidən bərpa edilmiş "Məktəbəqədər təlim və tərbiyə" ixtisasları hesabına say 8-ə çatdırılmışdır və hazırda da müəssisədə bu 8 ixtisas üzrə bakalavriat pilləsində kadr hazırlığı həyata keçirilir.



Fəaliyyətdə olduğu 15 ilə yaxın dövr ərzində Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında bakalavr pilləsində pedaqoji kadr hazırlığı ilə yanaşı, pedaqoji kadrların ixtisasının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanması sahəsində də səmərəli işlər aparılmışdır.

Filialda hazırda aşağıdakı struktur bölmələr fəaliyyət göstərir: Direktorluq; Tədrişin idarə olunması və tələbə şöbəsi; Ümumi şöbə; Mühasibatlıq; Xidmət şöbəsi; Kitabxana; Kompüter Mərkəzi; Pedaqoji fakültə və Filologiya fakültəsi; Kredit sistemi və tələbə nailiyyətlərinin qiymətləndirilməsi kabineti; Humanitar fənlər kafedrası; Təbiət fənləri və onların tədrisi metodikası kafedrası; Ümumelmi fənlər kafedrası; Dillər kafedrası.

Eyni zamanda, filialda 21 nəfər tərkibdən ibarət Elmi Şura, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar Təşkilatı kimi strukturlar da fəaliyyət göstərir.

Ölkə başçısı cənab İlham Əliyevin 26 noyabr 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə (ADPU) qoşulmş, onun filialları isə ADPU-nun filialları hesab edilmişdir. 2001-ci ildən bu ali məktəbə riyaziyyat elmləri doktoru, dosent Rafiq Abdulləli oğlu Rasulov rəhbərlik edir. Filialımız Azərbaycan Dövlət Pedaqoji Universitetinin tabeliyinə verildikdən sonra universiretin rektoru professor Cəfər Cəfərovun xüsusi qayğı və diqqəti sayəsində filialımızın uğurları, nailiyyətləri xeyli artmışdır.

Hazırda filialda respublikanın 40-dan çox şəhər və rayonundan olan 880 nəfər tələbə təhsil alır.

ADPU-nun Şəki filialına tələbə qəbulu dövlət qəbul planına uyğun olaraq Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir. Son illərdə ölkəmizdə təhsilin inkişafı istiqamətində həyata keçirilən islahatlar, yerinə yetirilən məqsədyönlü tədbirlər gənclərin elmə və təhsilə marağını daha da artırmışdır. Xüsusilə qeyd etmək istəyirəm ki, son üç ildə ölkəmizdə müəllimlik peşəsinə gənclərin marağı çox artmışdır. Həmçinin son illərdə filialın ixtisaslarına müsabiqə də xeyli yüksəlmiş, keçid ballarında dinamik artım müşahidə edilməkdədir. Fərəhləndirici haldır ki, filialımıza qəbul olunan tələbələr arasında 500 və 600-dən çox bal toplayan gənclərin sayı ilbəil çoxalır. İmtahanlarda yüksək nəticə göstərərək ali məktəbə qəbul olunan və ixtisas seçimində ilk yerdə müəllimlik peşəsini seçən gənclərə Azərbaycan Respublikası Təhsil nazirinin əmri ilə "Gələcəyin müəllimi" təqaüdü verilir. Filialımızda bu təqaüdə layiq görülən onlarla gənc təhsil alır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında ötən 25 illik fəaliyyəti dövründə zəruri ehtiyac olan ixtisaslar üzrə 4 mindən artıq ilkin kadr hazırlığı həyata keçirilmiş, bölgə ali məktəbi üçün qaneedici elmi-pedaqoji kadr potensialı formalaşdırılmışdır. Hazırda bu ali təhsil ocağında professor-müəllim heyəti tərkibində 97 nəfər çalışır ki, onlardan da 3 nəfəri elmlər doktoru (o cümlədən 1 nəfəri professor, 2 nəfəri əməkdar müəllim), 15 nəfəri fəlsəfə doktoru, (o cümlədən 8 nəfəri dosent), 47 nəfər baş müəllim, 26 nəfər magistr, 29 nəfəri doktorant və dissertantdır. Son 5 ildə filial əməkdaşlarından 2 nəfəri elmlər doktoru, 3 nəfəri isə fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə edərək alimlik dərəcələri alınmışdır.

Filial əməkdaşlarınının 60 nəfərdən çoxu Azərbaycanda, həmçinin ABŞ və Fransada müxtəlif təlim kurslarından keçərək sertifikatlar almışdır.

ADPU-nun Şəki filialında professor-müəllim heyətinin elmi tədqiqat işlərinə cəlb edilməsi sahəsində də xeyli uğurlu nəticələr əldə edilmişdir. Son üç ildə filialımızın müəllimləri tərəfindən tədris prosesi üçün zəruri ehtiyac olan 6 dərs vəsaiti, 7 monoqrafiya, 82 elmi və elmi metodiki məqalə, 47 konfrans tezisi hazırlanaraq nəşr etdirilmişdir. Filialın əməkdaşları, eləcə də tələbələri müntəzəm olaraq respublika və beynəlxalq səviyyəli elmi konfranslarda iştirak edirlər.

ADPU-nun Şəki filialının maddi-texniki bazası da xeyli zəngindir. Filial biri iki, digəri üç mərtəbədən ibarət olan iki tədris binasında yerləşir. Bu binalarda 20-dən çox otaq struktur bölmələrin fəaliyyəti, 40 auditoriya (onlardan 9-u ixtisaslaşdırılmış auditoriya, o cümlədən 5 kompüter otağı və 3 elektron lövhəli, 6 proyektorlu auditoriya) isə dərslərin tədrisinə xidmət edir. 100-dən çox internetlə əlaqəli kompüter tələbələrin istifadəsindədir. Filialda müasir texniki avadanlıqlarla təchiz olunmuş 150 yerlik akt zalı vardır. Bütün bunlar ayrı-ayrı təhsil proqramları üzrə rəqabətədözümlü mütəxəssis hazırlığı üçün qənaətbəxş olub, mövcud maddi-texniki təchizat standartlarına cavab verir. Filialın ərazisində idman meydançası, əhatəsində passiv istirahət üçün sahələr vardır.

**(ardı növbəti sayımızda)**

**Çingiz Ənvəroğlu,**
**Şəki**